# 2009-cu ilin yanvar-iyun ayları üçün Azərbaycan Respublikasının

# T Ə D İ Y Ə B A L A N S I

## Ümumi vəziyyət

Cari ilin altı ayında tədiyə balansının cari əməliyyatlar hesabının profisiti 4.5 mlrd. $ təşkil etmişdir.

Tədiyə balansının sektoral təhlili göstərir ki, əvvəlki illərdə olduğu kimi 2009-cu ilin yanvar-iyun aylarında da xarici iqtisadi əməliyyatlar *neft-qaz sektoru* üzrə müsbət saldoya, qeyri-neft sektoru üzrə isə mənfi saldoya malik olmuşdur.

Neft-qaz sektoru üzrə ümumi daxilolmalar əsasən neftin və təbii qazın ixracı və bu sektora cəlb edilən xarici kapitalın hesabına formalaşır. Bu sektor üzrə ödənişlər isə mənfəətin və investisiyaların repatriasiyasını, avadanlıqların və xidmətlərin idxalını əks etdirir.

2009-cu ilin yanvar-iyun aylarında neft-qaz sektoru üzrə yaranmış ümumi müsbət saldo keçən ilin müvafiq dövrü ilə müqayisədə 1.7 dəfə azalaraq 5.6 mlrd. $ olmuşdur. Bu, əsasən dünya bazarında xam neftin qiymətinin müqayisə olunan dövrə nisbətən iki dəfə azalması nəticəsində ölkədən ixrac olunan neftin ümumi dəyərinin aşağı düşməsilə, habelə bu sektora cəlb olunan birbaşa xarici investisiyaların və kreditlərin ümumi məbləğinin iki dəfə azalması ilə bağlı olmuşdur.

### *Tədiyə balansının əsas göstəriciləri*

Mln. $

| | 2008-ci il, 6 ay | 2009-cu il, 6 ay |
|---|---|---|
| ***I.Cari əməliyyatlar hesabının saldosu*** | ***9713.0*** | ***4480.8*** |
| Xarici ticarət balansı | 14017.8 | 5914.9 |
| Xidmətlər balansı | -1098.7 | -600.2 |
| Gəlirlər balansı | -3703.8 | -1161.4 |
| -İnvestisiya gəlirlərinin repatriasiyası | -3552.9 | -1060.9 |
| Cari transfertlər balansı | 497.7 | 327.4 |
| ***II.Kapitalın və maliyyənin hərəkəti hesabının saldosu*** | ***-3663.1*** | ***-4963.8*** |
| Birbaşa investisiyalar | -1295.3 | 93.9 |
| - Azərbaycana cəlb olunmuş | 2059.2 | 1519.0 |
| - Xaricə yönəldilmiş | -196.7 | -143.7 |
| - İnvestisiyaların repatriasiyası | -3157.8 | -1281.4 |
| Neft bonusu | 0.5 | - |
| Kreditlər və digər investisiyalar | -2368.3 | -5057.7 |
| ***III.Tədiyə balansının ümumi saldosu*** | ***6049.9*** | ***-483.0*** |

## Cari əməliyyatlar hesabı

2009-cu ilin yanvar-iyun aylarında cari əməliyyatlar hesabında 4.5 mlrd. $ məbləğində profisit yaranmışdır.

**Mln. $**




Müqayisə üçün bu göstərici 2008-ci ilin müvafiq dövrünün göstəricisindən 5.2 mlrd. $ azdır. Bu, əsasən xam neftin ixracının 1 barrelinin orta qiymətinin müqayisə olunan dövrlər üçün 97 $-dan 47 $-a qədər azalması ilə izah olunur. Beləliklə, ölkədən ixrac olunmuş xam neftin ümumi dəyəri 2.1 dəfə azalaraq 7.4 mlrd. $-ı təşkil etmişdir. Bu da öz növbəsində xarici ticarət balansının müsbət saldosunun 2.4 dəfə azalmasını şərtləndirmişdir.

### *Xarici ticarət balansı*

Xarici ticarət dövriyyəsi 11.8 mlrd. $ təşkil etmiş və *xarici ticarət balansı 5.9 mlrd. $ məbləğində müsbət saldo ilə nəticələnmişdir*.

2009-cu ilin yanvar-iyun aylarında Azərbaycanın dünyanın 120-dən çox dövləti ilə ticarət əlaqələri olmuşdur. Xarici ticarətin 11.6%-i MDB üzvü olan dövlətlərin, 88.4%-i isə digər xarici dövlətlərin payına düşür. Dövlətimizin İtaliya, ABŞ, Türkiyə, İsrail, Fransa, Rusiya, Birləşmiş Krallıq, Tayvan, Almaniya və İndoneziya ilə daha intensiv ticarət əlaqələri olmuşdur. (Ümumi ticarətdə bu ölkələrin payı 70.8% təşkil etmişdir.

***2009-cu ilin yanvar-iyun aylarında xarici ticarət üzrə əsas tərəf müqabilləri***

***(Mln. $)***

| | *Əmtəə dövriyyəsi* | *İxrac* | *İdxal* | *Saldo* |
|---|---|---|---|---|
| *Italiya* | *2185* | *2125* | *60* | *+2065* |
| *ABŞ* | *1441* | *1318* | *123* | *+1195* |
| *Türkiyə* | *885* | *511* | *374* | *+137* |
| *İsrail* | *758* | *719* | *39* | *+680* |
| *Fransa* | *693* | *621* | *72* | *+549* |
| *Rusiya Federasiyası* | *692* | *221* | *471* | *-250* |
| *Birləşmiş Krallıq* | *500* | *345* | *155* | *+190* |
| *Tayvan* | *419* | *417* | *2* | *+415* |
| *Almaniya* | *408* | *92* | *316* | *-224* |
| *İndoneziya* | *351* | *351* | *-* | *+351* |
| *Başqaları* | *3440* | *2123* | *1317* | *+806* |
| ***Cəmi*** | ***11772*** | ***8843*** | ***2929*** | ***+5914*** |
| *O cümlədən:* | | | | |
| ***MDB dövlətləri*** | ***1367*** | ***580*** | ***787*** | ***-207*** |
| ***Digər dövlətlər*** | ***10405*** | ***8263*** | ***2142*** | ***+6121*** |

**Əmtəə ixracı.** 2009-cu ilin yanvar-iyun aylarında əmtəə ixracı 8.8 mlrd. $-ı məbləğində olmuşdur.

İxrac olunmuş malların strukturunda neft məhsullarının payı 89.4% təşkil etmişdir.

Xarici dövlətlərə 7.9 mlrd. $ neft məhsulları ixrac olunmuşdur. İxrac olunmuş bütün neft məhsullarının 526.1 mln. $-ı neft emalı məhsullarının, 7.4 mlrd. $-ı isə xam neftin ixracının payına düşür.

İxrac olunmuş xam neftin 6.8 mlrd. $ Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) tərəfindən hasil olunmuş neftin ümumi dəyəridir. İxrac olunmuş ümumi xam neftin 547.8 mln. $ isə digər müəssisələr tərəfindən xaricə göndərilmişdir ki, bunun da 169.3 mln. $ Şahdəniz yatağından hasil edilmiş kondensatın, 378.5 mln. $ isə ARDNŞ-nin payına düşür.

***İxracın strukturu***

| | 2008-ci il, 6 ay | | 2009-cu il, 6 ay | |
|---|---|---|---|---|
| | Məbləğ, mln.$ | Xüsusi çəkisi, %-lə | Məbləğ, mln.$ | Xüsusi çəkisi, %-lə |
| **İxrac - cəmi** | **17233.1** | **100.0** | **8843.5** | **100.0** |
| o cümlədən: | | | | |
| 1.Yanacaq-xammal məhsulları | 16829.3 | 97.7 | 7997.9 | 90.4 |
| - neft məhsulları | 16544.3 | 96.0 | 7908.5 | 89.4 |
| - digər xammal | 285.0 | 1.7 | 89.4 | 1.0 |
| 2.Maşın və avadanlıq | 126.4 | 0.7 | 67.6 | 0.8 |
| 3.İstehlak malları | 252.0 | 1.5 | 242.2 | 2.7 |
| 4.Digər mallar | 25.4 | 0.1 | 535.8 | 6.1 |
| - təbii qaz | 14.5 | 0.1 | 529.8 | 6.0 |

2009-cu ilin yanvar-iyun ayları ərzində ölkənin **qeyri neft-qaz** ixracı keçən ilin müvafiq dövrü ilə müqayisədə 39.9% azalaraq 405.2 mln. $ olmuşdur.

**Əmtəə idxalı.** 2009-cu ilin yanvar-iyun aylarında əmtəə idxalı 2.9 mlrd. $-ı məbləğində olmuşdur. Cari ilin altı ayında istehlak mallarının idxalının ümumi dəyəri 1.3 mlrd. $-dan çox olmuşdur. Bunun da 433.6 mln. $ ərzaq məhsullarının payına düşür.

***İdxalın strukturu***

| | 2008-ci il, 6 ay | | 2009-cu il, 6 ay | |
|---|---|---|---|---|
| | Məbləğ, mln.$ | Xüsusi çəkisi, %-lə | Məbləğ, mln.$ | Xüsusi çəkisi, %-lə |
| **İdxal-cəmi** | **3215.2** | **100.0** | **2928.6** | **100.0** |
| cümlədən: | | | | |
| 1.İstehlak malları | 1351.2 | 42.0 | 1305.7 | 44.6 |
| - ərzaq məhsulları | 454.9 | 14.1 | 433.6 | 14.8 |
| - digərləri | 896.3 | 27.9 | 872.1 | 29.8 |
| 2.İnvestisiya yönümlü mallar | 395.3 | 12.3 | 320.7 | 10.9 |
| - beynəlxalq neft-qaz konsorsiumları | 348.2 | 10.8 | 234.9 | 8.0 |
| - digərləri | 47.1 | 1.5 | 85.8 | 2.9 |
| 3. Digər mallar | 1468.7 | 45.7 | 1302.2 | 44.5 |

Fiziki şəxslər tərəfindən *idxalı* (542.6 mln. $) və humanitar malları (14.6 mln. $) da nəzərə almaqla 2009-cu ilin yanvar-iyun ayları ərzində ölkəyə 1.3 mlrd. $-ı məbləğində istehlak malları gətirilmişdir. Bunun da 33.2%-i ərzaq məhsullarının payına düşür.

İdxalın strukturunda xarici investisiyalar hesabına gətirilmiş maşın-avadanlıqların və malların xüsusi çəkisi 10.9% təşkil edərək 320.7 mln. $ olmuşdur. Bunun 73.2%-ni beynəlxalq neft-qaz kontraktları çərçivəsində istifadə olunmuş investisiyalar hesabına idxal edilmiş mallar təşkil edir. Bundan başqa ölkəyə ümumi məbləği 1302.2 mln. $ olan istehsal təyinatlı maşın-avadanlıq, kimya, qara və əlvan metal məhsulları da gətirilmişdir.

***Xidmətlər balansı***

2009-cu ilin yanvar-iyun aylarında xarici dövlətlərlə Azərbaycanın iqtisadi əlaqələrində qarşılıqlı xidmətlər əsas yerlərdən birini tutmuşdur və bu xidmətlərin ümumi həcmi 2203.2 mln. $ təşkil etmişdir. Bunun 1401.7 mln. $ qeyri-rezidentlər tərəfindən Azərbaycanın rezidentlərinə, 801.5 mln. $ isə Azərbaycan rezidentlərinin xarici ölkələrin rezidentlərinə göstərdiyi xidmətlərdir. Beləliklə, xidmətlər balansının saldosu mənfi 600.2 mln. $ olmuşdur.

Qarşılıqlı xidmətlər dövriyyəsinin 28.3%-i nəqliyyat xidmətləri üzrə aparılan əməliyyatların payına düşür. Ümumi dəyəri 623.3 mln. $ bərabər olan nəqliyyat xidmətlərinin 44.4%-i Azərbaycan rezidentlərinin xarici dövlətlərin nəqliyyat sistemlərindən istifadə etmələri ilə əlaqədardır.

Öz növbəsində Azərbaycanın rezidentlərinin göstərdiyi nəqliyyat xidmətlərinin ümumi dəyəri 346.8 mln. $ təşkil etmişdir.

2009-cu ilin yanvar-iyun ayları ərzində xarici ölkə vətəndaşlarına turizmlə bağlı göstərilən xidmətlərin dəyəri 155.9 mln. $ məbləğində qiymətləndirilmişdir. Bunun 41.5%-i qeyri-rezidentlərin Azərbaycana işgüzar səfərləri ilə bağlıdır. Bu səfərlərlə

bağlı xarici iş adamlarına göstərilən xidmətlərin dəyəri keçən ilin müvafiq dövrü ilə müqayisədə 27.7 mln. $-ı artaraq 64.8 mln. $-na çatmışdır.

Öz növbəsində xarici ölkələr tərəfindən Azərbaycan rezidentlərinə turizmlə bağlı göstərilən xidmətlərin dəyəri 8.7% artaraq 155.8 mln. $ məbləğində olmuşdur. Bunun 90%-i Azərbaycan vətəndaşlarının şəxsi səfərləri ilə bağlı xarici ölkələrdə olarkən sərf etdikləri vəsaitlərin (məkik idxal istisna olmaqla) payına düşür.

Ümumiyyətlə, qarşılıqlı xidmətlərin ölkənin xarici dövlətlər ilə əmtəə və xidmətlər üzrə ümumi idxal-ixrac dövriyyəsində xüsusi çəkisi keçən ilin müvafiq dövrü ilə müqayisədə 4.1% artaraq 15.8% təşkil etmişdir.

### *Gəlirlər*

Gəlirlər üzrə daxilolmaların və ödənişlərin ümumi dövriyyəsi 1789.0 mln. $-a çatmışdır. Bunun 82.5%-ni (1475.2 mln. $) Azərbaycandan ödənişlər təşkil edir. Bu məbləğin isə əsas hissəsini (1060.9 mln. $) beynəlxalq neft-qaz konsorsiumlarının xarici investorlarının payına düşən gəlirlərinin repatriasiyası (əsasən xam neft və qaz şəklində), qeyri-rezidentlərə ödənilmiş əmək haqları (67.5 mln. $) və xarici kreditlərdən istifadəyə görə ödənilən faizlər (142.9 mln. $) təşkil edir.

Gəlirlərlə bağlı ölkəyə daxil olmuş vəsait 2008-ci ilin müvafiq dövrünün göstəricisinə nisbətən 82.2% artaraq 313.8 mln. $ olmuşdur. Bunun isə əsas hissəsini (207.7 mln. $) Dövlət Neft Fondunun vəsaitlərinə, (37.0 mln. $) Mərkəzi Bankın sərəncamında olan xarici valyuta ehtiyatlarına və (5.0 mln. $) bankların xaricdə yerləşdirilmiş aktivlərinə hesablanmış faizlər üzrə gəlirlər təşkil edir.

### *Cari transfertlər*

Cari transfertlər üzrə xarici ölkələrlə aparılan əməliyyatların ümumi dəyəri 834.6 mln. $ məbləğində qiymətləndirilmişdir. Bu məbləğin 69.6%-ni ölkəyə daxilolmalar təşkil edir. Belə ki, xarici ölkələrdən daxil olan pul baratlarının, humanitar malların, texniki və digər yardımların ümumi dəyəri 581.0 mln. $-ı ötmüşdür. Daxil olan vəsaitlərin 93.2%-i fiziki şəxslərin pul baratlarının payına düşür. Keçən ilin müvafiq dövrünə nisbətən bu göstərici 17.2% azalaraq 541.7 mln. $ təşkil etmişdir.

Cari transfertlər üzrə ümumi daxilolmaların 93.2%-ni xarici ölkələrdən fiziki şəxslərə köçürülən pul baratları, 2.5%-ni ölkəyə gətirilən humanitar idxal mallarının dəyəri, 4.3%-ni isə digər daxilolmalar təşkil edir.

Bütövlükdə, cari transfertlər üzrə əməliyyatların müsbət saldosu 327.4 mln. $ təşkil etmişdir.

## Kapitalın və maliyyənin hərəkəti

2009-cu ilin yanvar-iyun aylarında xaricdən cəlb olunmuş kapitalın ümumi həcmi 2.5 mlrd. $ təşkil etmişdir. Bu göstərici əsasən ölkəyə cəlb olunmuş birbaşa investisiyaların və xarici kreditlərin hesabına formalaşmışdır.

### *Cəlb olunmuş xarici kapitalın strukturu*

| | 2008-ci il, 6 ay | | 2009-cu il, 6 ay | | 2009-cu il 2008-ci ilə nisbətən, %-lə |
|---|---|---|---|---|---|
| | Mln. $-la | Xüsusi çəkisi, %-lə | Mln. $-la | Xüsusi çəkisi, %-lə | |
| **Birbaşa investisiyalar** | **2059.2** | **51.9** | **1519.0** | **60.0** | **73.8** |
| - neft–qaz sektoru | 1646.1 | 41.5 | 1107.9 | 43.8 | 67.3 |
| - digər sektorlar | 413.1 | 10.4 | 411.1 | 16.2 | 99.5 |
| **Kreditlər və digər investisiyalar** | **1910.2** | **48.1** | **1013.8** | **40.0** | **53.1** |
| - dövlət təminatlı kreditlər | 149.3 | 3.8 | 216.0 | 8.5 | 144.7 |
| - dövlət təminatı olmayan kreditlər | 1502.3 | 37.8 | 349.8 | 13.8 | 23.3 |
| - neft–qaz sektoru | 687.9 | 17.3 | 33.8 | 1.3 | 4.9 |
| - banklar | 525.9 | 13.2 | 209.0 | 8.3 | 39.7 |
| - digərləri | 288.5 | 7.3 | 107.0 | 4.2 | 37.1 |
| - digər investisiyalar | 258.6 | 6.5 | 448.0 | 17.7 | 173.5 |
| **Neft bonusu** | **0.5** | **-** | **-** | | |
| **C Ə M İ** | **3969.9** | **100.0** | **2532.8** | **100.0** | **63.8** |

### *Birbaşa investisiyalar*

Birbaşa investisiyalar formasında xaricdən cəlb olunmuş sərmayələrin ümumi məbləği 1519.0 mln. $ olmuşdur. Bu investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi 72.9% təşkil etmişdir. Bu sərmayələr iri neft-qaz layihələrinin, əsasən BP Eksploreyşn (Şah Dəniz) Ltd. layihəsi və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin Azəri-Çıraq-Günəşli yatağında görülən işlərin maliyyələşdirilməsi ilə əlaqədar ölkə iqtisadiyyatında istifadə olunmuşdur.

Qeyri-neft sektoruna isə cəlb olunmuş birbaşa investisiyaların ümumi məbləği 411.1 mln. $ olmuşdur. Bu da ölkəyə cəlb olunmuş birbaşa xarici investisiyaların ümumi həcminin 27.1%-ni təşkil etmişdir.

### *Kreditlər və digər investisiyalar*

Kreditlər və digər investisiyalar formasında cəlb olunmuş sərmayələrin xüsusi çəkisi xarici kapitalın strukturunda 1.9 dəfə azalaraq 40% təşkil etmişdir. Bunun səbəbi neft-qaz sektoruna cəlb olunmuş kreditlərin azalmasıdır. Nəticədə 2009-cu ilin yanvar-iyun aylarında cəlb olunmuş kredit və digər investisiyaların ümumi məbləği cəmi 1013.8 mln. $ təşkil etmişdir. Bu məbləğin yalnız 21.3%-i (216.0 mln. $) birbaşa dövlət və dövlət təminatı əsasında cəlb olunmuş kreditlərdir (beynəlxalq maliyyə və digər təşkilatlar tərəfindən ayrılmış kreditlər). 349.8 mln. $ vəsait isə dövlət təminatı olmayan kreditlərdir ki, bunun da 209.0 mln. $-ı banklar, 33.8 mln. $-ı neft-qaz sektoru, 107.0 mln. $-ı isə digər müəssisələr və firmalar tərəfindən cəlb olunmuşdur.

## Ehtiyat aktivlər

Hesabat dövründə ölkənin strateji valyuta ehtiyatları 01 iyul 2009-cu il tarixinə 17.2 mlrd. $ həcmində olmuşdur.